“Azərbaycan və dünya ədəbiyyatşünaslığı: problemlər və perspektivlər” mövzusunda Respublika Konfransı

24 aprel 2025-ci il, Bakı
Bakı Avrasiya Universiteti

Müraciət və qeydiyyat prosesi

Konfransın təqvimi

• Xülasə təqdim etmək üçün son tarix: 19 mart 2025-ci il
• Xülasələrin qəbul elanı: 01 aprel 2025-ci il
• Konfransın keçirilməsi: 24 aprel 2025-ci il
• Tam mətnin göndərilməsi üçün son tarix: 15 aprel 2025-ci il

Konfransda iştirak

• Konfrans Azərbaycan və dünya ədəbiyyatı kafedrasının təşkilatçılığı ilə Bakı Avrasiya Universitetində üz-üzə keçiriləcəkdir.

Konfransın əhatə dairəsi və mövzuları

“Azərbaycan və dünya ədəbiyyatşünaslığı: problemlər və perspektivlər” mövzusunda Respublika Konfransının məqsədi ədəbiyyatşünaslığın tarixinə nəzər salmaq və müasir vəziyyətini dəyərləndirmək, dünya ədəbiyyatşünaslığında müasir tendensiyalar və istiqamətlər zəminində Azərbaycan filologiyasının problemlərini gündəmə gətirmək, həll yolları üzərində düşünmək və sahə mütəxəssisləri ilə birlikdə dəyərləndirmələr aparmaqdır. Klassik və müasir ədəbiyyatın öyrənmə metodologiyalarında mövcud vəziyyət, çatışmazlıqlar, ədəbiyyatşünaslığın tədrislə bağlı problemləri, ölkə ədəbiyyatşünaslığının dünya ədəbi-nəzəri fikri ilə uyğunlaşması məsələsi, dünya ədəbiyyatşünaslığının izlənilməsi və tərcümə problemləri kimi məsələlərə diqqət yetiriləcək konfransda mütəxəssislər aşağıdakı mövzularla bağlı müzakirələr aparacaq və elmi məruzələrini təqdim edəcəklər.

Konfransın əhatə dairəsinə və məqsədinə uyğun olan, perspektiv təkliflərlə çıxış edilən xülasələr qəbul ediləcəkdir.

Tədqiqat sahələri/ Konfrans əhatə dairəsi

Konfransda aşağıdakı mövzular üzrə tədqiqatların nəticələrinin təqdim olunması nəzərdə tutulur:

- Ədəbiyyatşünaslığın sahələri və əsas istiqamətləri;
- Ədəbiyyatşünaslıqda metod, üslub və cərəyan;
- Humanitar filoloji fikirdə çağdaş paradiqmalar;
- Ədəbiyyat tarixinin dövrləşdirmə və təsnifat modelləri;
- Ədəbiyyatşünaslıqda klassik kanonlar və müasir tendensiyalar;
- Şərq ədəbiyyatşünaslığı və müasir vəziyyəti;
- Ədəbiyyatşünaslıq fənlərarası əlaqələr müstəvisində;
- Süni intellekt və ədəbiyyatşünaslıq;
- Ədəbiyyatşünaslıq və təlim-tədris prosesi: çətinliklər, yenilənmələr, vəzifələr;
- Ədəbiyyatşünaslıqla bağlı elmi nəşrlər və beynəlxalq bazalara çıxış;
- Sovet və postsovet kontekstində ədəbiyyatşünaslıq;
- Dünya ədəbiyyatşünaslığı və tərcümə problemləri;
- Mətnşünaslıq və mənbəşünaslığın problemləri;
- Uşaq ədəbiyyatı və ədəbiyyatşünaslıq.

Xülasə və məruzələrin yazı qaydaları:

Xülasə 250-400 söz arası 12 şrift 1 aralıqla Azərbaycan və ingilis dillərində göndərilməlidir. Xülasənin sonunda açar sözlər göstərilməlidir.

Tam mətn 10-15 səhifə, 12 şrift 1 aralıqla göndərilməlidir.

Müraciət forması

•Word formatında yazılmış xülasə 15 fevral 2025-ci il tarixinədək adepp@baau.edu.az ünvanına göndərilməlidir.

• Xülasə qəbul edildikdən sonra qəbul məktubu göndəriləcək.

• Konfrans 24 aprel 2025-ci il tarixində keçiriləcəkdir.

• Tam mətnlər 01 mart 2025-ci il tarixinədək adepp@baau.edu.az ünvanına göndərilməlidir.

Məruzə mətnləri aşağıdakı qaydada tərtib edilməlidir:

• MS Word redaktoru
• A4 formatı
• 12 ölçülü Times New Roman şrifti
• Sətirlərarası interval – 1
• Mətnin kənar boşluqları – 2 sm
• Mətnin əvvəlində müəllifin ORCİD nömrəsi, adı və soyadı, iş yeri, elmi dərəcəsi, elmi adı, elektron ünvanı göstərilməlidir.
• İstinadlar və ədəbiyyatlar APA Stilində olmalıdır.

Qeyd: **Tərtibata və mövzuya uyğun olmayan məruzələr qəbul edilməyəcək, sertifikatlar sadəcə əyani şəkildə konfransda iştirak etmiş məruzəçilərə veriləcəkdir.** Eləcə də konfransda iştirak etməyən müəlliflərin məruzə mətnləri çap edilməyəcəkdir.

Ünvan: AZ1110, Azərbaycan Respublikası, Bakı şəhəri, Ak. Həsən Əliyev küçəsi, 135 A

Tel: (+994 12) 564-63-67

E-mail: adepp@baau.edu.az

Təşkilat Komitəsi

F.ü.e.d., prof. Nazim HÜSEYNLİ
S.ü.f.d., dos. Səyavuş QASIMOV
S.ü.e.d., prof. Gülzar İBRAHİMOVA
Fil.ü.f.d., dos. Nigar HÜSEYNOVA
Fil.ü.f.d., dos. Sevda RZAYEVA
Günhan HÜSEYNLİ
Şəfahət ƏLİYEV
Fil.ü.f.d., dos. Salman SÜLEYMANOV
Fəl.ü.f.d., dos. Müttəlim RƏHİMOV
Fil.ü.f.d., prof. Elmira MƏMMƏDOVA-KEKEÇ
Fil.ü.f.d., dos. Səadət ŞIXIYEVA
Fil.ü.f.d., dos. Maral YAQUBOVA

Məsul katib

Fil.ü.f.d., dos. Maral YAQUBOVA

Elmi Heyət

Fil.ü.f.d., prof. Elmira MƏMMƏDOVA-KEKEÇ
Fil.ü.f.d., prof. Mahmud ALLAHMANOV
Fil.ü.f.d., prof. Seyfəddin RZASOY
Fil.ü.f.d., prof. Tərlan QULİYEV
Fil.ü.f.d., prof. Səadət ŞIXIYEVA
Fil.ü.f.d., prof. Mətanət ABBASOVA
Fil.ü.f.d., dos. Seyfəddin ALTAYLI
Fil.ü.f.d., dos. Maral YAQUBOVA
Fil.ü.f.d., dos. Xatirə YUSİFOVA
Fil.ü.f.d., dos. Əfsanə NAĞIYEVA